# AZƏRBAYCAN RESPUBLİKASININ
# ENERGETİKA NAZİRLİYİ

## ƏMR

№ 06

Bakı şəhəri "3" mart 2017 il

**Təhlükə potensiallı təbiət və texnogen xarakterli hadisələrin baş vermə ehtimalının yüksək olduğu zonalarda mühafizə tədbirlərinin növləri və onların tətbiqi hallarının təsdiq edilməsi ilə bağlı bəzi tədbirlər haqqında**

"Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 1.6.16-cı yarımbəndinin icrasını təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 6 fevral tarixli 31 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhlükə potensiallı təbiət və texnogen xarakterli hadisələrin baş vermə ehtimalının yüksək olduğu zonalarda mühafizə tədbirlərinin növləri və onların tətbiqi halları" ilə bağlı bəzi tədbirlərin icrasını təmin etmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti:

1.1. Maye və təbii qaz obyektlərində aşağıdakı mühafizə tədbirlərin icrasını təmin etsin:

1.1.1. Qaz kəmərlərinin, qazpaylayıcı stansiyaları (QPS), qaztənzimləyici məntəqələri (QTM) və qaz avadanlıqları üzrə:

1.1.1.1. qaz kəmərlərinin, qazpaylayıcı stansiyaların (QPS), qaztənzimləyici məntəqələrin (QTM), digər qaz avadanlıqlarının texniki təhlükəsizlik və tələb olunarsa, yanğın təhlükəsizliyi üzrə ekspertizadan keçmiş layihələr əsasında qurulması, dövri olaraq nəzarət profilaktiki baxışlarının və texniki xidmətin aparılmasını;

1.1.1.2. qaz təchizatı sistemində istismar müddəti bitmiş qurğu və avadanlıqların istismardan çıxarılmasını.

1.1.2. Mayeləşdirilmiş qazdoldurma məntəqələrinin və avtomobillərə mayeləşdirilmiş qazdoldurma stansiyalarının istismarı üzrə:

1.1.2.1. müsbət ekspertiza rəyi olmayan layihələr əsasında tikilmiş və ya istismar müddəti bitmiş, təhlükəsizlik vasitələri ilə tam təmin olunmayan qurğu və avadanlıqların istismardan çıxarılmasını;

1.1.2.2. partlayış həddini yaradan təzyiqlərdən qoruyan qoruyucu və təhlükəsizlik qurğu və cihazlar ilə təchizolunmasını;

1.1.2.3. tələb olunan yanğınsöndürmə vasitələri ilə təchizolunmasını;

1.1.2.4. istehsalatın təyinatından və xüsusiyyətindən asılı olaraq mütəxəssislərin və işçi heyətin yanğın və zəhərlənmə hallarında qorunması məqsədi ilə geyim, əleyhqaz, qazlaşmanın həddini təyin edən cihazlarla təmin olunmasını;

1.1.2.5. cavabdeh şəxslərin və işçi heyətinin vəzifə borclarına və istehsalat təlimatlarına ciddi əməl etmələri, ildə bir dəfə tibbi müayinədən və təlimata uyğun bilik yoxlamasından keçmələri, təhlükəsizlik tədbirlərinin və nəzarətin gücləndirilməsini.

1.1.3. Yeraltı qaz kəmərlərində mexaniki, korroziya xarakterli zədələnmələrin qarşısının alınması üzrə:

1.1.3.1. paslanmadan qoruyan elektro-kimyəvi mühafizə qurğularının effektli işləməsinin təmin edilməsini;

1.1.3.2. dövri olaraq cihazlarla və ya şurf açma yolu ilə qaz kəmərlərinin texniki vəziyyətinin müayinəsinin aparılması və istismara yararlılığının təyin edilməsini;

1.1.3.3. təhlükəli vəziyyətdə olan yeraltı qaz kəmərlərinə texniki baxışın intensivliyinin artırılmasını;

1.1.3.4. istismara yararsızlığı təyin olunmuş yeraltı qaz kəmərlərinin vaxtında dəyişdirilməsini.

1.2. Neftqazçıxarma sənayesi obyektlərində aşağıdakı mühafizə tədbirlərin icrasını təmin etsin:

1.2.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 6 fevral tarixli 31 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhlükə potensiallı təbiət və texnogen xarakterli hadisələrin baş vermə ehtimalının yüksək olduğu zonalarda mühafizə tədbirlərinin növləri və onların tətbiqi halları"nın 3.1-ci bəndində müəyyən edilmiş neftqazçıxarma sənayesi obyektlərində texnogen xarakterli hadisələrinin qarşısının alınması üzrə:

1.2.1.1. quyuların qazılması və təmiri zamanı quyu ağzının hermetik yığılmasını (preventorların qoyulmasını);

1.2.1.2. stasionar dəniz platformalarının tikintisi və istismarı zamanı qurğunun təhlükəsizlik bəyannaməsinin işlənməsini;

1.2.1.3. üzən qazma qurğularının istismarı prosesində dalğıc kompleksinin, mövcudluğuna kompleks nəzarətin təşkilini;

1.2.1.4. neftin və qazın hasilatı və hazırlanması obyektləri üzrə - klapanların, separatorların, torpaqlanma bəndlərinin, nəzarət ölçü cihazlarının, ildırım ötürücülərin saz vəziyyətdə saxlanmasını.

1.2.2. Neftqazçıxarma sənayesində I və II kateqoriyalı qəzalar zamanı qəzaların ləğv edilməsi ilə əlaqədar neft sənayesinin bütün partlayış və yanğın təhlükəli obyektlərində baş verə biləcək qəzaların ləğvi planı işlənilib hazırlanmasını.

2. “Azərenerji” Acıq Səhmdar Cəmiyyəti və “Azəristiliktəchizat” Acıq Səhmdar Cəmiyyəti fəaliyyət istiqamətlərinə uyğun olaraq buxar və qızdırıcı qazanların və energetika qurğuların istismarı obyektlərində aşağıdakı mühafizə tədbirlərin icrasını təmin etsinlər:

2.1. İstismar zamanı buxar və suqızdırıcı qazanların, təzyiq altında işləyən tutumların dağılması, zədələnməsi və partlaması nəticəsində insanların zədələnmələrinin qarşısını almaq məqsədi ilə qazanlar və tutumlar 1-ci və 2-ci dərəcəli mühafizə sistemləri ilə təchiz edilməsini;

2.2. Qızdırıcı qazan, qaldırıcı və energetika obyektlərinin istismarı üzrə qəzaların ləğvi planları işlənilməsini.

3. Enerji siyasəti və yanacaq-enerji resursları şöbəsi və Elektroenergetika şöbəsi bu əmrin 1-ci və 2-ci hissələrində qeyd olunan mühafizə tədbirlərin icra vəziyyətinə nəzarət etsinlər və ildə bir dəfədən az olmayaraq mühafizə tədbirlərin icra vəziyyəti ilə bağlı məlumatları Azərbaycan Respublikasının energetika nazirinə təqdim etsinlər.

4. Dövlət Enerji Nəzarəti İdarəsi və Dövlət Qaz Nəzarəti İdarəsi dövlət nəzarətini həyata keçirdikdə və enerji qurğusunun istismarına icazə verdikdə energetika sahəsində fəaliyyət göstərən şəxslər tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 6 fevral tarixli 31 nömrəli qərarı ilə təsdiq edilmiş təhlükə potensiallı təbiət və texnogen xarakterli hadisələrin baş vermə ehtimalının yüksək olduğu zonalarda mühafizə tədbirlərinin icrasını təmin etsinlər.

3. Ümumi şöbə bu əmrin surətini Nazirliyin aparatının aidiyyəti şöbələrinə, Nazirliyin strukturuna daxil olan İdarələrinə, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə, “Azərenerji” Acıq Səhmdar Cəmiyyətinə və “Azəristiliktəchizat” Acıq Səhmdar Cəmiyyətinə çatdırılmasını təmin etsin.

4. Əmrin icrasına nəzarət nazir müavini Natiq Abbasova həvalə edilsin.

Nazir Natiq Əliyev